# Azərbaycanlı opera sənətçisi Avropa səhnələrində

İtaliyanın "Opera 2001" təşkilatı İspaniya və Fransanın müxtəlif şəhərlərində Cüzeppe Verdinin "İl Trovatore" ("Trubadur") operasını səhnələşdirir. Martın 2-dək nümayiş olunacaq operada soydaşımız Çinarə Şirin mezzo-soprano səsli qaraçı Azuçena rolunda çıxış edir.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, soydaşımızın çıxışı tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanır.

Qeyd edək ki, İtaliyada yaşayan opera sənətçisi Çinarə Şirin Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirilən bir sıra layihələrin iştirakçısıdır. Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin üzvü, Almaniyada yaşayan pianoçu Səbinə Məmmədovanın təşkilatçılığı ilə ötən il martın 3-də Milanda baş tutan "Musiqi sərhəd tanımır" adlı konsert proqramı da belə layihələrdən biri olub.

---

Azərbaycan. - 2025.- 12 fevral (№31).- S.11.